# Təbriklər!

Siz ADA Universitetinə qəbul olmusunuz. İndi isə qəbulunuzu təsdiqləmək üçün qeydiyyat qaydaları ilə tanış olun.

# Qeydiyyat prosesi

01

Elm və Təhsil Nazirliyinin onlayn portalında qeydiyyatdan keçin

02

ADA Universitetinin onlayn ərizə formasını doldurun

03

Sənədlərinizi ADA Universitetinə gətirin və tələbə kartınızı alın

## 1-ci addım:

Elm və Təhsil Nazirliyinin onlayn portalında qeydiyyatdan keçin

*Növbəti səhifədə bu mərhələ ilə bağlı detallar qeyd olunub*

# Elm və Təhsil Nazirliyinin portalında qeydiyyat

- https://portal.edu.az saytında abituriyentin FİN kodu ilə qeydiyyatdan keçin

- Portalda qeydiyyatla bağlı ətraflı təlimatla www.ada.edu.az/qeydiyyat səhifəsində tanış ola bilərsiniz

- Portala aşağıdakı sənədlərin skan olunmuş versiyası yüklənməlidir:

  - *Yalnız oğlanlar üçün:* Hərbi bilet və ya çağırış məntəqəsinə təhkim edilmə haqqında vəsiqənin yazı və möhür olan bütün səhifələri
  - *Yalnız imtiyazlı kateqoriyadan olan abituriyentlər üçün:* imtiyazı təsdiq edən sənədin bütün yazı və möhür olan səhifələri

- Portal qeydiyyatını tamamladıqdan sonra, təsdiq gözləmədən növbəti mərhələyə keçin

## 2-ci addım:

# ADA Universitetinin onlayn ərizə formasını doldurun

*Növbəti səhifədə bu mərhələ ilə bağlı detallar qeyd olunub*

# ADA Universitetinin onlayn ərizə forması

- www.ada.edu.az/apply linkində onlayn ərizə formasını doldurun
- Ərizə formasının doldurulması ilə bağlı ətraflı videonun linki www.ada.edu.az/qeydiyyat səhifəsindədir
- Onlayn ərizə formasında abituriyent özünün işlək elektron poçtunu qeyd etməlidir. Bu elektron poçt (e-mail) mütəmadi yoxlanılmalıdır. ADA elektron poçtuna giriş üçün istifadəçi adı və parol bu elektron poçta göndəriləcəkdir.
- Elektron ərizəyə aşağıdakı sənədlərin skan olunmuş versiyası yüklənməlidir (sənədləri düzgün və tam şəkildə yükləmək önəmlidir, əks halda qeydiyyat tamamlanmır):
  - Attestat
  - Abituriyentin şəxsiyyət vəsiqəsinin hər iki üzü
  - İngilis dili imtahanı nəticəsi (əgər varsa)
- Ərizə formasının sonunda 40 AZN ərizə haqqı kart vasitəsilə ödənilməlidir.

## 3-cü addım:

# Tələb olunan sənədləri ADA Universitetinə gətirin və tələbə kartınızı alın

*Növbəti səhifədə bu mərhələ ilə bağlı detallar qeyd olunub*

*Qeyd: Təhsil Tələbə Kreditinə müraciət edən abituriyentlər yalnız kredit müraciəti təsdiqləndikdən sonra 3-cü addımı yerinə yetirməlidirlər.*

# Sənədləri ADA Universitetinə gətirin

**Tələb olunan sənədlərin siyahısı:**

**18 yaşına çatmış abituriyentlər üçün**

- Qeydiyyat vərəqəsinin çap olunmuş variantı. Sənədi www.ada.edu.az/qeydiyyat linkindən əldə edin
- Tam orta təhsil haqqında attestatın əsli (11-ci sinif attestatı)
- Abituriyentin şəxsiyyət vəsiqəsinin hər iki üzünün surəti
- Tələbə müqaviləsi- müqaviləni www.ada.edu.az/qeydiyyat linkindən əldə edin, 2 nüsxədə çap edin və imzalayın (tələbə və hər iki valideyn tərəfindən imzalanmalıdır)
- Ödəniş qəbzinin əsli

**18 yaşına çatmamış abituriyentlər üçün əlavə sənədlər (yuxarıdakılar da gətirilməlidir)**

- Doğum haqqında şəhadətnamənin surəti
- Valideynlərin hər ikisinin şəxsiyyət vəsiqəsinin hər iki üzünün surəti

**İmtiyazlı kateqoriyaya aid abituriyentlər üçün əlavə sənədlər (yaşdan asılı olaraq yuxarıdakılar da gətirilməlidir)**

- Ətraflı məlumat üçün növbəti səhifələrə baxın

Sənədləri hər gün (bazar günü istisna olmaqla) saat 09:30-dan 17:30-a qədər ADA Universitetinə gətirə bilərsiniz.
Tələbə kartı veriləcəyi üçün abituriyent özü gəlməlidir.

# Tam təhsil haqqı ödəyənlər üçün ödəniş məbləği

| İxtisas | Birinci semestr üçün tam təhsil haqqı və tələbə xərcləri |
|---|---|
| **1-ci qrup** | |
| Kompüter elmləri | 3000 AZN |
| Kompüter mühəndisliyi | 3000 AZN |
| İnformasiya texnologiyaları | 3000 AZN |
| Riyaziyyat | 3000 AZN |
| Elektrik və Elektronika mühəndisliyi | 3000 AZN |
| **2-ci qrup** | |
| Biznesin idarə edilməsi | 3250 AZN |
| İqtisadiyyat | 3250 AZN |
| Maliyyə | 3250 AZN |
| **3-cü qrup** | |
| Dövlət və ictimai münasibətlər | 3000 AZN |
| Hüquqşünaslıq | 3250 AZN |
| Kommunikasiya və rəqəmsal media | 3000 AZN |
| Beynəlxalq münasibətlər | 3000 AZN |

# Təhsil haqqından tam azad olan kateqoriyalar

- 650-700 bal toplayıb Riyaziyyat və ya İqtisadiyyat ixtisaslarına qəbul olanlar
- 690-700 bal toplayıb digər ixtisaslara qəbul olanlar
- 650-690 bal toplayıb Riyaziyyat və ya İqtisadiyyatdan başqa digər ixtisaslara qəbul olanlar (bir il müddətinə 100%-lik güzəşt əldə edilrlər)
- Riyaziyyat, fizika və informatika üzrə RFO qalibləri (I qrup ixtisaslarına qəbul olduqları halda).
- I və ya II qrup əlilliyi olan (orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə) abituriyentlər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək olan uşaqlar
- Məcburi köçkün statusu olan abituriyentlər
- Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş və ya əlil olmuş şəxslərin övladları
- Şəhid ailəsi üzvləri və ya 23 yaşınadək olan şəhid övladları
- Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 23 yaşınadək şəxslər
- Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə “Müharibə veteranı” adı almış şəxslər
- **Yuxarıdakı kateqoriyalardan birinə aid olan abituriyentlərin qeydiyyat üçün depozit məbləği 375 AZN-dir (RFO qalibləri istisnadır). Bu birinci semester üçün tələbə xərcləridir.**

# 600-649 bal toplamış abituriyentlər üçün ödəniş məbləği

| İxtisas | **Cəmi ödəniləcək məbləğ** | Birinci semestr üçün təhsil haqqı | Birinci semestr üçün tələbə xərcləri |
|---|---|---|---|
| Kompüter elmləri | **1688 AZN** | 1313 AZN | 375 AZN |
| Kompüter mühəndisliyi | **1688 AZN** | 1313 AZN | 375 AZN |
| İnformasiya Texnologiyaları | **1688 AZN** | 1313 AZN | 375 AZN |
| Riyaziyyat | **375 AZN** | 0 AZN | 375 AZN |
| Elektrik və Elektronika mühəndisliyi | **1688 AZN** | 1313 AZN | 375 AZN |
| Biznesin idarə edilməsi | **1813 AZN** | 1438 AZN | 375 AZN |
| İqtisadiyyat | **375 AZN** | 0 AZN | 375 AZN |
| Maliyyə | **1813 AZN** | 1438 AZN | 375 AZN |
| Beynəlxalq münasibətlər | **1688 AZN** | 1313 AZN | 375 AZN |
| Dövlət və ictimai münasibətlər | **1688 AZN** | 1313 AZN | 375 AZN |
| Hüquqşünaslıq | **1813 AZN** | 1438 AZN | 375 AZN |
| Kommunikasiya və rəqəmsal media | **1688 AZN** | 1313 AZN | 375 AZN |

# Sənədlərlə bağlı suallar

**Tələbə müqaviləsi:**

- İxtisasınıza uyğun müqaviləni www.ada.edu.az/qeydiyyat linkindən yükləyin və iki nüsxədə çap edin;

- Abituriyentin 18 yaşı olmadığı halda müqavilənin hər iki nüsxəsini abituriyent və hər iki valideyn (və ya rəsmi qəyyumlar) imzalamalıdır.

# Ödənişi necə edə bilərəm?

## Bank köçürməsi yolu ilə:

- Ödəniş formasını dolduraraq istənilən banka yaxınlaşaraq ödənişi həyata keçirə bilərsiniz. Ödəniş formasını www.ada.edu.az/qeydiyyat linkindən əldə edə bilərsiniz. ADA Universitetinin bank hesabının PAŞA Bankda olduğunu nəzərə alaraq ödənişlərin PAŞA Bank və ya Kapital Bankda həyata keçirilməsi tövsiyə olunur.

## Onlayn ödəniş portalı vastəsilə:

- Hökumət Ödəniş portalı (HÖP)
  - HÖP üzərindən ödəniş yalnız Elm və Təhsil Nazirliyinin portalında müraciətiniz tamamlandıqdan sonra mümkündür.
- ADA Universitetinin onlayn ödəniş portalı
  - Portala linki www.ada.edu.az/qeydiyyat linkindən əldə edə bilərsiniz
  - Siyahıdan «Deposit fee/Depozit ödənişi» seçimini etməklə ödənişi həyata keçirə bilərsiniz.

# Təhsil Tələbə Krediti (TTK)

- Təhsil Tələbə Krediti əldə etmək istəyən tələbələr qeydiyyata gəlməzdən əvvəl artıq TTK-ya müraciət etməlidirlər.

- TTK müraciət etmək üçün aşağıdakı mərhələlər sırası ilə həyata keçirilməlidir:
  - Elm və Təhsil Nazirliyinin portalında müraciət tamamlanmalıdır (qeydiyyatın birinci addımı)
  - ASAN Xidmətə müraciət edərək notariusdan ərizə nömrəsi əldə edilməlidir
  - Notariusdan ərizəni aldıqdan sonra tələbə www.e-ttkf.edu.az portalına daxil olub müraciətini göndərməlidir.
  - Əgər abituriyent Standart TTK-ya müraciət edirsə, illik təhsil haqqının 20% hissəsinin ödənişi tələb olunacaqdır
  - TTK haqqında daha ətraflı məlumat https://e-ttkf.edu.az linkindən əldə edilə bilər.

- **Qeyd: TTK ilə qeydiyyatdan keçmək istəyən abituriyentlər TTK-ya müraciət etmədən qeydiyyata gələrlərsə, onların qeydiyyatı tamamlanmayacaqdır**

# Sosial statusla bağlı imtiyazları təsdiq edən sənədlərin siyahısı

**1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları:**

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi-sosial ekspert komissiyasında sonuncu müayinəyə dair məlumat (Forma 88)

**2. Şəhid ailəsinin üzvü olan abituriyentlər (övladları 23 yaşınadək):**

- şəhid ailəsi vəsiqəsi (18 yaşı tamam olan abituriyentlər şəhid ailəsinin üzvü kimi müstəqil vəsiqə almalıdır)

**3. Məcburi köçkün statusu olan abituriyentlər:**

- Abituriyentin məcburi köçkün vəsiqəsi (2023-cü ildə təsdiq möhürü olmalıdır)

**4. Valideynlərini itirmiş və ya Valideyn himayəsindən məhrum olmuş 23 yaşınadək olan abituriyentlər**

- Vəfat etmiş valideyinin (valideynlərin) ölüm haqqında şəhadətnaməsi
- Digər valideyinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi-sosial ekspert komissiyasında sonuncu müayinəyə dair məlumat (Forma 88)

**5. Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş abituriyentlər**

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi-sosial ekspert komissiyasında sonuncu müayinəyə dair məlumat (Forma 88)

**6. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər**

# Əlaqə məlumatları:

Bizimlə qeydiyyatın hər günü saat 09:00-13:00 və 14:00-18:00-da aşağıdakı vasitələrlə əlaqə saxlaya bilərsiniz. **İlk öncə, elektron poçt vasitəsilə əlaqə saxlamaq tövsiyə olunur.**

Elektron poçt: bachelors@ada.edu.az

Telefon:

- 012 437 32 35
- 051 201 15 11
- 050 274 95 51

